AZƏRBAYCAN TARİX QURUMU

# TARİX VƏ GERÇƏKLİK

2007, 1-2-ci cildlər

## THE HISTORY & REALITY

**2007, 1-2 volume**

## ИСТОРИЯ И РЕАЛНОСТЬ

**2007, 1-2 том**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZIDENT KITABXANASI

**2007-ci ildən nəşr olunur**

**1-2/2007**

## Redaksiya Şurası:

AMEA-nın müxbir üzvü, prof., **Y.M.Mahmudov**,
AMEA-nın müxbir üzvü, prof. **V. Ə. Əliyev**,
t.e.d., prof. **T.T.Mustafazadə**, t.e.d., **M.N. Rəhimova**,
t.e.d., prof. **Ş.F.Fərzəliyev**,t.e.d., prof. **V.Z.Piriyev**,
t.e.d., prof. **M.C. Qasımlı**, t.e.d. **F.R. Ağamalı**, t.e.d. **K.K. Şükürov**
t.e.n. **C.Ə.Bəhramov**, t.e.n. **H.N.Həsənov**,

## Redaktorlar:

t.e.d., prof. **T.T.Mustafazadə** (məsul redaktor),
t.e.d., prof. **F. N. Məmmədov**,
t.e.n. **E.Ə.Məhərrəmov** (məsul katib),
t.e.n. **İ.M.Məmmədova** (məsul redaktor müavini), t.e.n. **G.C.Nəcəfli**,
t.e.n. **N.Ş. Əmirbəyova**, t.e.n. **N.R.Gözəlova** ,t.e.n. **Y. H. Gözəlova**,

## Editorial Board:

Prof., **Y.M.Mahmudov**, Prof. **V. A. Aliyev**,
Prof. **T.T.Mustafazadeh**, Doct. **M.N. Rehimova**,
Prof. **Ş.F.Farzaliyev**, Pprof. **V.Z.Piriyev**,
Prof. **M.C. Qasimli**, Doct. **F.R. Aqamalı**, Doct. **K.K. Shukurov**
Cand. **C.Ə.Bahramov**, Cand. **H.N.Hasanov**,

## Editors:

Prof. **T.T.Mustafazadeh** (editor-in-chief),
Prof. **F. N. Mamedov**,
Cand. **E.Ə.Maharramov** (secretary responsible),
Cand. **İ.M.Mamedova** (asistant of editor-in-chief), Cand. **G.J.Nacafli**,
Cand. **N.Sh. Amirbegova**, Cand. **N.R.Gozelova** , Cand. **Y. H. Gozelova**,



Ünvan: 1143 Bakı, H. Cavid prospekti 31, 6-cı mərtəbə, mənzil 23
Tel: +99412 438 01 51 Mobil: +99450 377 20 66
e-mail: tofig2014@rambler.ru

Adress: 1143 Baku, H. Javid Avenue 31, Floor 6/23
Tel: +99412 438 01 51 Mobile: +99450 377 20 66
e-mail: tofig2014@rambler.ru


Tarixin metodoloji və aktual problemlərinə həsr olunmuş beynəlxalq elmi-nəzəri konfrans haqqında

## MƏLUMAT

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Tarix Qurumunun birgə hazırladıqları konfrans 2007-ci il iyunun 27-28-də Bakı şəhərində AMEA-nın əsas binasındakı kiçik akt zalında keçirildi. Konfransa 10 məruzə və çıxış mətni təqdim olunmuşdu (o cümlədən Türkiyədən - 12, Rusiya Federasiyasından – 9, İran İslam Respublikasından – 1). Konfransı giriş sözü ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru AMEA-nın müxbir üzvü, millət vəkili Y.M.Mahmudov açdı. O, müasir mərhələdə Azərbaycan tarix elminin inkişafının başlıca istiqamətlərindən, qarşılaşdığı problemlərdən və tarixçilərimiz qarşısında duran vəzifələrdən ətraflı danışdı.

Ümumi iclasda ilk məruzəni Azərbaycan Tarix Qurumunun sədri t.e.d. T.T.Mustafazadə etdi. Məruzəçi qeyd etdi ki, SSRİ-nin dağılması və dünya sosializm sisteminin dağılması ilə ölkəmizdə hökmran olan marksist-leninçi ideologiya və onun bir hissəsi olan tarixi tədqiqatın marksisit metodologiyası da yoxa çıxmışdır. Bu gün Qərb ölkələrində yayılmış metodologiyalar və yanaşmalar isə Azərbaycan tarixinin mürəkkəb problemlərini görmək üçün heç də həmişə yaramır. Buna görə də metodologiya sahəsində axtarışlar aparmaq, ən optimal variantları tapmaq vacibdir. Daha sonra K.Çiçəyin, M.Qasımlının və M.Mirzəyevin maraqlı məruzələri dinlədildi.

Nahar fasiləsindən sonra konfrans öz işini iki bölmədə: tarixin metodoloji problemləri və tarixin aktual problemləri bölmələrində davam etdirdi. İyunun 28-də bölmələr öz işlərini yekunlaşdırmışdır. İstər ümumi iclasda, istərsə də bölmələrdə dinlənilən məruzələrdə çox aktual məsələlər qaldırıldığından və onları geniş oxucu kütləsinə çatdırmağın müəyyən faydası olacağını düşünərək biz həmin məruzələrdən ən maraqlılarını dərgimizdə çap etməyi lazım bildik.

# TARİXİN METODOLOJİ PROBLEMLƏRİ



## TARİXƏ YENİ YANAŞMA, YAXUD YENİ METODOLOGİYA AXTARIŞLARI VƏ AZƏRBAYCAN TARİX QURUMUNUN QARŞISINDA DURAN VƏZİFƏLƏR

**Tofiq Mustafazadə**

Bu gün demək olar ki, bütün postsovet ölkələrində tarixə yeni tərzdə yanaşırlar. Tarixə yeni yanaşma dedikdə ilk növbədə köhnə sovet konsepsiyalarını bir kənara atıb, tarixi hadisələri milli maraqlar baxımından fikir süzgəcindən keçirib qiymətləndirmək başa düşülür. Bu tamamilə doğru yanaşmadır, ancaq məsələnin hələ tam həlli deyil. Çünki tarixi hadisələrin mahiyyətini anlamaq üçün elmi nəzəriyyəyə əsaslanmaq və düzgün elmi-tədqiqat üsulları seçmək lazımdır. Həm də bu istiqamətdə ifrata varmanın da təhlükəsi var. Belə ki, əgər hər bir ölkənin tarixçisi tarixi yalnız öz ölkəsinin maraqlarından yazacaqsa, onda müxtəlif ölkələrdə bir-birinə zidd tarixi təsəvvürlər yaranacaq və oxucu əsl həqiqəti anlamaqda çətinlik çəkəcək. Həm də axı bu gün biz ictimai şüurun və mədəniyyətin bir çox sahələrində ümumbəşəri dəyərlərin üstünlüyündən danışırıq, onda niyə görə tarixin tədqiqində dünyada geniş yayılmış metodologiya və üsullardan istifadə edilməsin. Tədqiqatçılar obyektiv həqiqəti az-çox dərəcədə düzgün əks etdirən nəticələrə gəlmək üçün ilk növbədə düzgün metodologiyaya arxalanmalı və səmərəli elmi-tədqiqat üsullarından istifadə etməlidirlər.

Gəlin etiraf edək ki, bu gün bizim çoxumuz (içərisində mən də daxil olmaqla) hətta təcrübəli alimlərimizi də nəzərdə tuturam, yeni tarixi nəzəriyyələri və tarixi-tədqiqat metodlarını zəif bilirik. Mənə etiraz edib deyə bilərlər ki, bu yanlışdır və təcrübəli alimlərimizin nəzəri səviyyəsi yüksəkdir. Ola bilər ki, kimlərin isə bu sahədə yüksək hazırlığı var, ancaq tətbiq etmir, hətta öz aspirantlarına və dissertantlarına öyrətmir. Əks halda necə izah etmək olar ki, müdafiə olunan dissertasiyaların (doktorluq dissertasiyaları da daxil olmaqla) tədqiqatın metodoloji bazasına həsr olunmuş bölməsi ən kiçik və zəif bölmə (çox vaxt bir və ya iki şablon cümlədən ibarət) olur, bir yaxud iki tədqiqat metodunun adı çəkilir.

Məncə bizim tarix elminin yeni nəzəriyyələrlə zəif tanışlığı

---

Mustafazadə Tofiq Teyyub oğlu – t.e.d., prof., Azərbaycan Tarix Qurumunun sədri, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri.

bununla izah olunur ki, təcrübəli, nisbətən yaşlı tarixçilərimiz Qərbi Avropa dillərini zəif bildiklərinə görə bu nəzəriyyələrlə yaxından tanış olmaq imkanına malik deyillər. Cavanlar isə nəzəriyyəyə az meyl edirlər. Həm də əcnəbi dil bilən cavan tarixçilərin çoxusu yüksək məvacib dalınca firmalara işə girirlər.

Tarixi biliklərin içərisində nəzəri əsasları və konkret-tarixi təsəvvürləri ayırmaq olar. İdrakın nəzəri əsası yaxud metodologiya, özünəməxsus qəlib, koordinatlar rolu oynayaraq bütün faktik materialın içərisində istiqamətləndirməyə, anlayışların əsas sistemlərini formalaşdırmağa yardım edir.

Bu gün tarixi tədqiqatın iki əsas modeli məlumdur.

Birinci model ümumdünya tarixi prosesin monist (vahid) interpretasiyasına əsaslanır. Bu model dünya tarixini universal, fasiləsiz, tam birxətli təzahür kimi təsvir edir. Əsasən marksizmin müdafiə etdiyi belə model tarixi zamanı mərhələlərə, dövrlərə bölməyə, onu dövrləşdirməyə imkan verir.

Tarixi tədqiqatın ikinci modeli ümumdünya tarixi prosesin çoxşaxəliliyinə, onun plüarilizminə əsaslanır. Bu təsəvvürdə dünya özünəməxsus mədəniyyəti olan məkanca məhdud cəmiyyətlərdən (mədəni-tarixi tipli, yaxud lokal sivilizasiyalardan) ibarətdir.

Dünya tarixinə dini baxışa da birinci modelin çərçivəsində baxmaq olar. Dini prinsiplər əsasında yazılmış tarix universaldır.

Məlumdur ki, XX əsrdə bir çox qərb və şərq ölkələrində Marks və Engelsin yaratdığı tarixi materializm tarixi dərk etmək üçün açar rolunu oynamışdır. Tarixi materializmin başlıca tələbi isə sinfi yanaşma, sinfi təhlil idi. Bu məntiqlə də tarixin öyrənilməsində sosial tarixə (sinfi mübarizə və s.) üstünlük verilirdi.

Bu gün əlbəttə ki, postsovet məkanında yaşayan tarixçilərin, o cümlədən də Azərbaycan tarixçilərinin əksəriyyəti tarixi materializm metodologiyasından xilas olmuş və ya xilas olmaq istəyirlər. Buna görə də yeni, daha düzgün metodologiya axtarışı gedir.

Lakin bu gün nəinki dünya tarixçilərinin, eləcə də bir ölkənin tarixçilərinin baxışları heç də eyni deyil. Bu da ondan irəli gəlir ki, qərb ölkələrində meydana gəlmiş tarix nəzəriyyələrinin heç biri mükəmməl deyil və heç də hər zaman tədqiqatçıya qarşıya çıxan suallara cavab verməkdə köməklik edə bilmir.

Bəs necə etməli? Burada bir çıxış yolu var. Ən çox dəyərli nəzəriyyələri öyrənmək və uyğun gəldiyi yerdə onları tətbiq etmək. Əgər elə bir təzahür meydana çıxır ki, onu heç bir nəzəriyyə və baxışla izah etmək olmur, onda tarixçi sadəcə sağlam mühakimə əsasında nəticə çıxartmalıdır.



Məlumdur ki, fəlsəfi konsepsiyalar tarixi tədqiqatların metodoloji əsaslarını təşkil edir. Bu gün ən mühüm fəlsəfi istiqamətlər aşağıdakılar sayılır: neopozitivizm, ekzistensializm və germenevtika, praqmatizm, fenomenologiya və strukturalizm, poststrukturalizm; tarixi-mədəni relyatizm məktəbi və müasir dini fəlsəfə, neokantizm və postmodernizm.

Tarixçilər tarixi prosesin mahiyyətini izah edən, onu öyrənməyə yanaşmaları müəyyənləşdirən bir çox konsepsiyalar işləyib hazırlamışlar. Sovet tarixşünaslığında marksist metodologiyası hökmran idi. Bu tarixşünaslıqda vurğu məhsuldar qüvvələri öyrənməyə yönəldilir, sinfi mübarizə tarixi prosesin oxu sayılır, formasiya yanaşması üstünlük təşkil edirdi. Marksizmə görə cəmiyyət ictimai-iqtisadi formasiyalar üzrə ibtidai cəmiyyətdən quldarlıq quruluşuna, sonra feodalizmə, daha sonra kapitalizmə keçmişdir.

Cəmiyyət haqqında marksist təsəvvürlərinin mühüm cəhətləri ümumdünya tarixi prosesin vəhdəti və onun universallığıdır. Cəmiyyətdə obyektiv qanunlar fəaliyyət göstərir, onları nəinki dərk etmək mümkündür, həm də zəruridir. Marksizm nəzəriyyəsinin tərəfdarları öz diqqətlərini obyektiv və qanunauyğunun öyrənilməsinə cəmləyirlər. Bəşəriyyətin inkişafının məhz bu ümumi qanunları dünyanın vəhdətini təmin edir.

Marksist konsepsiyasında bəşəriyyət tarixi formasiya adlandırılan müəyyən mərhələlərin, pillələrin yaranması, inkişafı və əvəzlənməsi kimi təqdim olunur. Bu kateqoriya marksizmdə fundamental əhəmiyyətə malikdir və hakim mülkiyyət forması ilə müəyyən olunur.

İctimai-iqtisadi formasiya deyildikdə ictimai həyatın bütün sahələri (iqtisadi, sosial, siyasi, mədəni və s.) nəzərdə tutulur. Formasiyada məhsuldar qüvvələr və istehsal münasibətləri həlledici rol oynayır. Bunlar istehsal üsulunu, yaxud cəmiyyətin bazisini təşkil edirlər. İstehsal usulunun üzərində ideoloji, dini, hüquqi, mədəni və insan cəmiyyətinin digər formaları qurulur.

Marksist baxışlar sistemində iqtisadi amil həlledici rol oynayır, o digər sosial və mənəvi təzahürləri müəyyən edir. «İctimai varlıq şüuru təyin edir».

Çox mürəkkəb olan formasiyaların dəyişməsi prosesi öz obyektiv qanunları əsasında baş verir. Keçid sosial inqilab yolu ilə olur. Bu proses mütərəqqi istiqamət daşıyır, yəni bəşəriyyət nisbətən aşağı inkişaf mərhələlərindən daha yüksək mərhələlərə doğru irəliləyir.

Belə bir nəticə çıxarılırdı ki, bütün bəşəriyyət bəzi istisnalar olmaqla bu mərhələləri keçmiş və ya keçəcəkdir. Beləliklə, formasiyalar nəzəriyyəsi ümumdünya tarixini dövrləşdirmək üçün əsas verir.

Marksizm nəzəriyyəsi yaxşı inkişaf etdirilmiş və öz kateqoriyaları var (bazis, üstqurum, formasiya, istehsal üsulu, sosial inqilab və s.). Bu nəzəriyyə ictimai həyatın sinfi mübarizə, sosial inqilab, ictimai antoqonizm, siyasi nəzəriyyələr, ideologiyalar kimi tərəflərinə üstünlük verərək onları cəmiyyətin ən başlıca xarakteristikası sayırdı.

Marksist tarixşünaslığında da ümumdünya tarixinin qədim, orta və yeni dövrlərə bölünməsi kimi ümumi sxemdən istifadə olunurdu. Bu zaman dövrlər ictimai-iqtisadi formasiyaların dəyişilməsi ilə birbaşa əlaqələndirilirdi. Məsələn, qədim tarixə quldarlıq quruluşu, orta əsrlərə feodalizm, yeni dövrə kapitalizm uyğun gəlirdi. Marksizm nəzəriyyəsi hər hansı digər nəzəriyyə kimi ictimai həyatın bir sıra ola bilsin ki, çox mühüm tərəflərini açıb izah etməyə qadir idi, öz idrak imkanları var idi və digər nəzəriyyələrlə rəqabət apara bilərdi. Lakin marksizm rəsmi dövlət ideologiyası və nəinki yeganə elmi nəzəriyyə kimi mutləqləşdirildi, həm də ehkamlaşdırıldı və bəsitləşdirildi. Beləliklə, marksizm sosial nəzəriyyəsinin tarix fəlsəfəsinin ümumi inkişaf gedişini nəzərə almaqla geniş yaradıcı şəkildə işlənməsi imkanı əməli cəhətdən istisna olundu.

Sosial-iqtisadi formasiyalar nəzəriyyəsi K.Marks və F. Engelsin XIX əsrin 40-cı illərindən başlayaraq insanın və tarixi prosesin idealistcəsinə dərk olunmasına qarşı apardıqları mübarizənin təbii nəticəsi idi. O zaman «gənc hegelçilər» və digər idealistlər tarixi «ruhun inkişafı və özünü dərk etməsi» kimi anlayırdılar. Bunun əksinə olaraq tarixin materialistcəsinə dərk olunması elmi təfəkkürün böyük uğuru idi.

Sovet tarixçilərinin tarixi materializm nəzəriyyəsindən istifadə etmələrinin təcrübəsi göstərir ki, istənilən cəmiyyəti öyrənərkən beş üzvlü sxem tətbiq olunurdu. Guya istənilən cəmiyyət bu və ya digər formasiyaya uyğun gəlir. Tarixi həqiqətlə «ideal tip» arasında uyğunluq tapmaq mümkün olmadıqda bu cəmiyyətin lokal özünəməxsusluğundan, ya da tam inkişaf etməməsindən danışılırdı. Tarixi inkişaf yolu dəmir yoluna oxşadılırdı. Qatar hər hansı stansiyadan yan keçə bilər, ancaq hər bir halda bu yolla hərəkət edir.

Formasiyalar nəzəriyyəsi tarixçilərin təcrübəsində ictimai-tarixi təhlil, yox məqsəd oldu: konkret tarixi idrak fəlsəfi-tarixi sistemin həqiqiliyini təsdiq etməli idi.



Marksın irəli sürdüyü elmi fərziyyə sonradan səhvsiz ehkama çevrildi. Guya Marks bütün zamanlarda və bütün yerlərdə fəaliyyət göstərən tarixi inkişaf qanunlarını kəşf etmişdi. Marksa «ayı xidməti» göstərərək onun baxışlarını heç bir mübahisə doğurmayan həqiqət elan etdilər.

Marksın formasiyalar nəzəriyyəsinə normal münasibəti bərpa etsək labüd olaraq bir sıra suallar meydana çıxır. Bu nəzəriyyə tarixi həyatın bir tərəfini ictimai-iqtisadi aspekti ayırır.

Bu aspektin müstəsna əhəmiyyəti şübhəsizdir. Lakin demək olmaz ki, ibtidai-icma düvründə də, antik dövrdə də, orta əsrlərdə də həm Şərqdə, yaxud Afrikada, eyni dərəcədə də yeni dövrdə Avropada iqtisadi münasibətlər ictimai həyatın determinantı olmuşlar.

Marks nəzəriyyəsi yalnız hər hansı dövrdə və müəyyən ərazidə hansısa formasiyanın axtarışını nəzərdə tutmur, bu nəzəriyyə tam tarix fəlsəfəsi kimi işlənilmişdir. O, bəşəriyyətin ardıcıl pillələrlə ibtidai kommunizmdən quldarlıq, feodalizm və kapitalizmdən keçməklə kommunizm cəmiyyətinə keçməsi haqqında təlimi ifadə edir. Formasiyalar nəzəriyyəsinə görə tarixi inkişaf «inkarı inkar» qanunu ilə inkişaf edir.

Beləliklə, formasiyalar nəzəriyyəsi tarixi prosesi öyrənməyə adekvat deyil.

Formasiyalar konsepsiyası kimi tarixin bütün mürəkkəb və ziddiyyətli problemlərini həll etmək üçün sehirli bir çubuq rolunu oynaya bilmədi. Bir çox problemlər tədqiqatlardan kənarda qalırdı. İnsan tarixin yaradıcısı elan olunsa da unudulurdu. Sadə əməkçidən tutmuş görkəmli dövlət xadiminə kimi – bütün adamlar istisnasız olaraq sinfi mübarizənin subyekt və obyektləri kimi qiymətləndirilir. Həyatın sonsuz rəngarəngliyi, çoxcəhətliliyi çox vaxt quru, qara rəngdə təsvir olunur.

SSRİ dağıldıqdan sonra postsevet məkanında tarixi prosesi işıqlandırmaq üçün yeni yanaşmaların hazırlanması zəruri meydana gəlmişdir. Lakin indiyə kimi insan cəmiyyətinin inkişafının yeni konsepsiyaları formalaşmamışdır.

Bir çox hallarda tarixi tədqiqatların metodoloji əsası kimi sivilizasion yanaşmadan istifadə olunur. A.Toynbinin ifadə və ideyaları geniş təbliğ olunur.

Lakin sisilizasion yanaşmanın çox müxtəlif şərhləri var. Sivilizasion yanaşmaya tərəfdar olan tarixçilər tarixi prosesi regional və ya xronoloji cəhətdən bir-birini əvəz edən sivilizasiyalar kimi

anlayırlar. Sivilizasiyalar müəyyən sikl-yaranma, çiçəklənmə və tənəzzül mərhələləri keçirirlər.

Bu planda Sovet ittifaqı da xüsusi bir sivilizasiya olmuşdur.

Digərləri sivilizasion yanaşmanı tarixin istənilən sirlərinin qıfılını aça biləcək sehirli açar sayırlar. Üçüncülər belə hesab edirlər ki, sivilizasion yanaşmanın gücü tarixi öyrənərkən coğrafi, maddi və mənəvi amillərin vəhdətində nəzərə alınmasındadır.

Tarixi tədqiqatlarda sivilizasion yanaşmadan yaradıcı şəkildə istifadə olunması müəyyən müsbət nəticələr verə bilər.

Tarixi dərk etmək hədsiz dərəcədə mürəkkəb və çətindir, çünki tarixi proses heç zaman düz xətlə hərəkət etməmişdir və etmir, yüksəlişlər və enişlər, düz xətt və ziqzaqla, dönüşlərlə hərəkət etmişdir.

Tarixi proses külli sayda iri və xırda faktlar, təzahürlərdən oluşur. Planetimizdə baş verən hər şey vaxt ötdükcə tarixə çevrilir. Heç bir elm bu qədər çox faktla işləmir. Bu istənilən xronoloji dövr üçün bəşəriyyətin həyatının bütün təzahürlərinin tarixi əsərlərdə adekvat əksini əməli cəhətdən qeyri-mümkün edir.

Tarixin istənilən dövrü xüsusi yanaşma, dövrün spesifikasını nəzərə almağı tələb edir. Bəşər tarixi coğrafi və geosiyasi mövqeyi ilə şərtlənən xüsusiyyətləri olan çoxsaylı regional tarixlərdən oluşur. Gözlənilməz təbii hadisələr daşqınlar, zəlzələlər, iqlimin dəyişməsi tarixin gedişinə təsir göstərir.

Buna görə tarixi yalnız ağ-qara rəngdə, üfiqi səthdə öyrənmək olmaz.

Sonradan onları birləşdirib keçmişin çoxölçülü səhnəsini yaratmaq üçün tarixi prosesin bütün tərkib hissələrini üzə çıxaran müəyyən sistem lazımdır. Tarixi inkişafın amillərinin və məcralarının çoxluğu onların konkret (ancaq təcrid vəziyyətində yox) tədqiqini tələb edir.

Y.A.Polyakov «məcralar» (istiqamətlər) variantını irəli sürmüşdür. Polyakovun fikrincə tarixi prosesin çoxölçülüyünü əks etdirə bilmək üçün əvvəlcə bu prosesin daxilində cərəyan edən müxtəlif məcraları müəyyənləşdirmək lazımdır. Alimin fikrincə tarix elminin ilkin vəzifəsi müxtəlif dövrlər üzrə və müxtəlif xalqlarda sinifləri, təbəqələri, qrupları, silkləri öyrənməkdir. Hər bir sinfin, təbəqənin, silkin tarixi ayrıca istiqamətdir.

Tarixi metodun ümumilliyinin tarixə sistem gətirəcəyini düşünmək yanlış olardı. Belə düşünmək həmin metodun əhəmiyyətini şişirtmək deməkdir. Tarixçinin işi hər dəfə materialın özündən asılıdır. Bu və ya digər halda tədqiqatı necə aparmaq və onun nəticələrini necə tərtib etməklə bağlı təcrübədə bir sıra üsullar və qaydalar yaranmış və onlarla ümumi «tarixi metod» adı verilmişdir. Lakin bu qaydaları əzbərləməklə tarixçi olmaq mümkün olduğunu, tarixi tədqiqat aparmağı metodologiya bölmələri üzrə öyrənməyin mümkün olduğunu düşünmək kobud səhv olardı.

Bir çox digər sahələrdə olduğu kimi tarixi tədqiqatda da müəllim şagirdə işləməyi öyrətmək iqtidarında deyil, yalnız onu yönəldə bilər. Əlbəttə, müəllimin rəhbərliyi ilə tədqiqatın xarici, texniki üsullarını mənimsəmək olar, lakin ən başlıcası materialın daxilinə nüfuz etmək, tarixi problemi qoyub və onu həll etmək bacarığı müstəsna olaraq tədqiqatçının şəxsi keyfiyyətlərindən asılıdır. Müəllim yol gösətərə, şagirdə hər hansı problemin qoyulmasına və həllinə özü şagirdin qabağında etməklə onu yönəldə bilər. Lakin fəlsəfi ideyaların, yaxud təbiət qanunlarını kəşf etməyi öyrətmək mümkün olmadığı kimi tarixi əsər yaratmağı öyrətmək mümkün deyil.

Humanitar elmlərin, o cümlədən tarixin tədqiqatının əsas prinsiplərinin və metodlarının ardıcıl surətdə hazırlanmasına yalnız XIX əsrdən başlanmışdır. Yəni tarixi idrakın metodologiya və metodikası çox gəncdir və demək təbii ki, idealdan çox uzaq vəziyyətdədir.

Külli miqdarda sənədlərin tədqiqi və təhlili tarixçi alimlər qarşısında tədqiqatın universal metodlarını yaratmaq vəzifəsi qoymuşdur. Tarixi məlumatların seçilməsi və izahının standart üsulları yaradılarkən iki prinsipdən çıxış etmək lazımdır: a) tarix elmlərində idrak üsulları imkan daxilində sadə omalıdır. b) öyrənilən predmetin spesifikasını nəzərə almaq lazımdır.

Tarixin bir elm kimi tanınması problemi də metodologiya məsələlərinin aktuallığını gücləndirir. Bir çox alimlər iddia edirlər ki, tarix elm olmaqdan daha çox incəsənətdir. Yəqin elə bunun nəticəsidir ki, ayrı elmin nümayəndəsi və ya hər hansı yerindən qalxan tarixlə demək olar ki, məşğul olmadan, heç bir tarixi erudusiyası və nəzəri hazırlığı olmadan özünü tarixçi elan edir və «tarixi əsər» ortaya qoyur. Tarixin elm olmamaması müddəası ilə əlbəttə ki, razılaşmaq olmaz. Tarix elmdir, ancaq xüsusi növ elmdir. O təbiət elmlərindən xeyli fərqlənir. Tarixin spesfik tədqiqat predmeti və tarixi reallığı dərk etmə üsulları var. Bu isə tarix elmiinin metodoloji bazasının gücləndirilməsini tələb edir.

İstənilən tarixi əsəri yazarkən onun aktual olub-olmadığını müəyyənləşdirmək lazımdır.



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**